

# Yusif HƏSƏNBƏY - 90

Hörmətli Yusif müəllim!

Sizi - tanınmış şair, nasir və dramaturqu 90 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz bədii yaradıcılığa ötən əsrin əllinci illərində başlamısınız. 1954-cü ildə "Azərbaycan" jurnalında dərc olunmuş şeirlərinizlə ilk dəfə oxucularla görüşə gəlmisiniz. Həmin vaxtdan etibarən şeir və poemalarınızla, ədəbi-tənqidi, publisistik yazılarınızla mətbuatda müntəzəm çıxış etmisiniz. 1960-cı ildə ilk kitabınız - "Ördəyin balaları" çapdan çıxmışdır. Sonralar "Yağışda çimən cücə", "Çay dənizə tələsir", "Unutmaram o günləri", "İnsan ömrü", "Zirvə qarı", "Xəcalətli qalmayaq", "İşığın istisi", "Məhəbbətli dünyamız" və s. kitablarınız işıq üzü görmüşdür. Siz qələminizi nəsrdə də sınamısınız. "Sualtı döyüşlər" romanınız 2001-ci ildə kitab şəklində çapdan çıxmışdır. "Next - özgə millət", "Buzqıran yol açır", "Sarı Çalı", "Onu çağırırdılar" kimi nəsr əsərləriniz, roman və povestlərinizin də taleyi uğurlu olmuşdur. Çoxşaxəli yaradıcılığınızda dramaturgiyaya və bədii tərcüməyə də geniş yer vermisiniz. "Dağlarda işıq", "Ayı kürkü", "Sehirli üzük", "Yıxılanı qaldırın", "Bir həyatin sakinləri", "Kölgənin kölgəsi" pyesləriniz televiziya və teatr səhnələrində tamaşaya qoyulmuşdur. Dünya klassiklərinin şeirlərindən ibarət seçmələr daxil edilmiş "İnadkar sətirlər" və "Qağayı" adlı tərcümə kitablarının müəllifisiniz.

Siz 1956-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetini, 1977-ci ildə M.Qorki adına Moskva Dünya Ədəbiyyatı İnstitutunu bitirmisiniz. Əmək fəaliyyətinə Azərbaycan LKGİ Varaşilov (indiki Səbail) rayon Komitəsində başlamısınız. Sonra Azərbaycan Dövlət Musiqi Nəşriyyatında, "Bakı" qəzetində çalışmısınız. Azərbaycan PEN-klubunun təsisçilərindən biri və məsul katibi işləmisiniz. Yazıçılar Birliyi Quba zonasına sədrlik etmisiniz. Uzun illərdir "Azərbaycan" jurnalının əməkdaşısınız. Ədəbiyyatımız qarşısındakı xidmətləriniz yüksək qiymətləndirilmiş, Siz "Əməkdar incəsənət xadimi" fəxri adına, Rəsul Rza adına Beynəlxalq mükafata layiq görülmüsünüz.

Hörmətli Yusif müəllim!

Sizi bir daha yubileyiniz münasibəti ilə təbrik edir, sizə uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**